

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 64 (23.226)

*9 aprel 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş





Aprelin 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Tacikistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rüstəm Soli ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı salamlamış, Naxçıvan Muxtar Respublikasının ərazisi, sərhədləri, idarəetmə quruluşu və iqtisadi inkişafı haqqında ətraflı məlumat vermişdir. Blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikada kənd təsərrüfatı və sənayenin inkişaf etdiyini, enerji və ərzaq təhlükəsizliyinin təmin olunduğunu bildirən Ali Məclisin Sədri yerli istehsalın və ixracın həcminin artırılması sahəsində görülən işlərdən danışmışdır. Yaşayış məntəqələrinin sürətli internet və rabitə xidməti ilə təmin olunduğunu bildirən Ali Məclisin Sədri elm, nəqliyyat və təhsil müəssisələrinin fəaliyyətinə toxunmuş, turizm potensialını diqqətə çatdırmışdır.

Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Tacikistan arasında əlaqələrin inkişafı üçün imkanların olduğunu vurğulamış və səfərin əhəmiyyətini qeyd etmişdir.

Səfir Rüstəm Soli səmimi görüşə görə minnətdarlıq etmiş, Naxçıvanda olmaqdan məmnunluq duyduğunu bildirmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərindəki muzeyi ilə tanışlığın onda dərin təəssürat yaratdığını qeyd edən diplomat ölkələrimiz arasındakı əlaqələrin inkişafında ulu öndərin xidmətlərini xatırlatmış, Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafını vacib məsələ kimi dəyərləndirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## İndoneziya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Naxçıvan Dövlət Universitetində olub




İndoneziya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri, professor Hüsnan Bəy Fanani Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində də olub. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ali təhsil ocağının strukturu, fakültələri, tədris olunan ixtisaslar və beynəlxalq əlaqələri haqqında geniş məlumat verib.

Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində keçirilən tədbiri giriş sözü ilə açan rektor ali təhsil ocağının beynəlxalq əlaqələrinin sürətlə genişləndiyini bildirib. Universitetdə hazırda 500-ə yaxın xarici tələbənin təhsil aldığı vurğulanıb. Qeyd edilib ki, universitet müxtəlif ölkələrin ali təhsil ocaqları ilə tələbə və müəllim mübadiləsini həyata keçirir. Universitetdə hər bir fakültə üçün ayrıca tədris korpusunun olduğunu diqqətə çatdıran rektor bunu Ali Məclis Sədrinin xüsusi diqqət və qayğısı kimi dəyərləndirib.

Göstərilən səmimi münasibətə görə minnətdarlıq edən diplomat bildirib ki, artıq 3 ildir, Azərbaycanda səfir kimi fəaliyyət göstərir. Öz ölkəsi haqqında təqdimatla çıxış edən Hüsnan Bəy Fanani ölkəsinin tarixi, coğrafi mövqeyi, mədəniyyəti, ictimai-siyasi və iqtisadi vəziyyəti, ordusu, İndoneziya-Azərbaycan əlaqələri barədə ətraflı məlumat verib. Diplomat vurğulayıb ki, İndoneziya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı və ədalətli mövqeyini, ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir.

İncəsənət fakültəsində davam edən görüşdə pianoda Müslüm Maqomayevin "Azərbaycan" mahnısını universitetin kamera orkestrinin müşayiəti ilə ifa etməsi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

**Səadət ƏLİYEVA**
***NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## Operativ vergi nəzarəti aparılır

*Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə monitorinq və yoxlamalar bu ilin ötən dövründə də davam etdirilmişdir.*




Əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərən ödəyicilərin aşkar edilməsi, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbul edilməsi və sair bu kimi operativ vergi nəzarətinin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 42 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilərək müvafiq tədbirlər görülmüşdür.

Operativ vergi nəzarəti tədbirləri zamanı 27 vergiödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması müəyyən edilib. Keçirilən nəzarət tədbirləri zamanı 11 şəxsin vergi orqanlarında uçota durmadan öz şəxsi avtomobili ilə sərnişindaşıma fəaliyyəti ilə və 1 şəxsin "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" almadan əyləncə tədbirlərində videoçəkilişin həyata keçirilməsi ilə məşğul olduğu aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb. Aparılan operativ vergi nəzarəti tədbirləri zamanı tətbiq edilmiş 1610 manat maliyyə sanksiyası məbləğinin büdcəyə ödənilməsi təmin edilib.

2019-cu ilin müvafiq dövründə vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 1 vergiödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb və bu zaman əvvəlki dövriyyələrlə müqayisədə 1424 manat dövriyyə artımına nail olunub.

Operativ vergi nəzarəti tədbirləri davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya 2019-cu ilin ötən 3 ayında öz fəaliyyətini gücləndirmiş, dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında tətbiqinə nəzarət edilmiş, 3 dövlət orqanının qanunvericiliyə uyğun olmayan 4 qərarı ləğv etdirilmiş və muxtar respublikada vətəndaşların dövlət qulluğuna qəbulunun mərkəzləşdirilmiş qaydada müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi təşkil olunmuşdur.***

## 257 nəfərə sertifikat verilib

Dövlət orqanlarında 305 vakant vəzifənin tutulması məqsədilə elan olunmuş müsabiqədə iştirak etmək üçün 583 nəfər sənəd təqdim etmiş, test imtahanında iştirak etmiş 570 namizəddən 257-si keçid balını toplamışdır. Komissiya tərəfindən 1-18 mart tarixlərdə keçirilən müsahibələrdə iştirak etmiş 210 namizəddən 106-sı keçid balını toplayaraq müvəffəqiyyət qazanmış, onlardan 99-u vakant vəzifəyə təyin olunmuşdur.

Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifələrinin tutulması üçün cari ilin 6 mart tarixində esse imtahanı keçirilmiş, iştirak edən 7 nəfərdən 6-sı uğur qazanmışdır. Muxtar respublikada ilk dəfə olaraq Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqəyə 38 vakant vəzifə çıxarılmış, 8 vəzifənin tutulması üçün 10 nəfər sənəd təqdim etmişdir. 25-27 fevral 2019-cu il tarixlərdə keçirilmiş test imtahanlarında 10 namizəd iştirak etmiş, onlardan 5-i müvafiq keçid balını toplamışdır.

Şahmatın tədrisinin keyfiyyətinin yaxşılaşdırılması və müəllimlərin peşəkarlıq səviyyəsinin yoxlanılması məqsədilə 11-14 fevral tarixlərdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində şahmat fənnini tədris edən müəllimlərin sertifikasiyası üzrə test imtahanları keçirilmiş, imtahanlarda 445 müəllim iştirak etmiş və 404-ü müvafiq keçid balını toplamışdır. Həmçinin vakant aparat rəhbəri, şöbə müdiri və sektor müdiri vəzifələrinin tutulması üçün 15 namizədin iştirakı ilə test imtahanları keçirilmiş, onlardan 5-i müvəffəqiyyət qazanmışdır. Qanunvericiliyə uyğun olaraq 2019-cu ilin birinci rübündə keçirilmiş test imtahanlarında uğur qazanmış 257 nəfərə sertifikat verilmişdir.

Komissiya tərəfindən ehtiyat kadrlar siyahısında əvvəlki illərdən qalan 18 namizəddən 5-i cari ilin birinci rübündə işlə təmin olunmuşdur. Bundan başqa, dövlət qulluğu, vergi, gömrük, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində işə qəbul üçün təşkil edilmiş hazırlıq kurslarında 67 nəfər iştirak etmişdir.

"Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamından irəli gələn vəzifələrin icra edilməsi məqsədilə Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi ixtisasının tələbələri üçün komissiyanın təcrübəli əməkdaşları tərəfindən ayda iki dəfə açıq dərslər keçilmişdir. Komissiyanın iş planına uyğun olaraq 7-21 fevral tarixlərdə "Dövlət qulluqçularının etik davranış qaydaları" və "Dövlət orqanlarında vətəndaşların müraciətləri və sənədlərlə işin aparılması qaydaları" mövzularında 8 maarifləndirici seminar keçirilmiş, həmin seminarlarda mərkəzi və yerli icra hakimiyyəti orqanlarında və məhkəmələrdə inzibati vəzifə tutan 1032 dövlət qulluqçusu iştirak etmişdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

# Aqrar sahə davamlı olaraq inkişaf edir

## *Bunu ötən ilin nəticələri də göstərir*

***Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının ölkəmizdə, o cümlədən muxtar respublikamızda qətiyyətlə davam etdirilməsi iqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatı sahəsində də böyük nailiyyətlər əldə olunmasını, makroiqtisadi sabitliyin möhkəmləndirilməsini, davamlı iqtisadi inkişafı təmin edib. Bu inkişaf kənd təsərrüfatı sahəsində də özünü büruzə verir. Belə ki, muxtar respublikada aqrar sektor daim diqqət mərkəzində saxlanılır, onun inkişafına dəstək verilir, müvafiq qanun və sərəncamlar qəbul olunmaqla kənd təsərrüfatına investisiya qoyuluşu ilbəil artırılır.***

Son illər aqrar sektorda çalışan fermerlər və torpaq mülkiyyətçilərinə göstərilən hərtərəfli dövlət qayğısının nəticəsində bu sahəyə olan maraq daha da artır. Kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına dövlət tərəfindən hər hektar sahə üçün 50 manat vəsaitin, həmçinin səpilən hər hektar buğda sahəsi üçün əlavə olaraq 40 manat vəsaitin verilməsi ötən il də təmin edilib. Bundan başqa, hər hektar əkin sahəsi üçün tələb olunan mineral gübrələrin 70 faizi də təsərrüfatlara verilib. Məhsul istehsalçılarına, ümumilikdə, 5338 tondan çox azot və fosfor gübrəsi paylanıb.

Görülən işlərin nəticəsi olaraq 2018-ci ilin məhsulu üçün 61 min 935 hektar sahədə əkin aparılıb. Bu da 2017-ci ilin məhsulu üçün əkilmiş sahədən 404 hektar çoxdur. 2018-ci ildə 480 milyon 21 min manatdan artıq kənd təsərrüfatı məhsulu istehsal edilib ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,4 faiz çoxdur.

Muxtar respublikada aqrar sektorun inkişafında soyuducu anbarların yaradılmasının da mühüm rolu vardır. Bu anbarlar bir tərəfdən, istehsal olunan məhsulların satışı ilə əlaqədar meydana çıxan problemləri aradan qaldırmaqla meyvə-tərəvəzin yetişdirilməsinə marağı artırırsa, digər tərəfdən, əhalinin ilboyu keyfiyyətli məhsullarla təminatına imkan verir. Qeyd edək ki, diyarımızda ümumi tutumu 14 min 245 ton olan 33 iritutumlu soyuducu anbar tikilib istifadəyə verilib.

Əvvəlki illərdə olduğu kimi, ötən il də taxılçılıq əsas əkinçilik sahəsi kimi diqqət mərkəzində saxlanılıb. 2018-ci ilin məhsulu üçün yazlıq əkinlərlə birlikdə taxıl əkini sahəsi 32 min 483 hektara bərabər olub.





Ötən il dənli və dənli-paxlalı əkin sahəsində 104 min 413 ton məhsul yığılıb ki, bu da 2017-ci illə müqayisədə 4297 ton çoxdur.

Naxçıvan Muxtar Respublikasında taxılçılığın inkişaf etdirilməsində taxıl ehtiyatı anbarlarının tikilib istifadəyə verilməsinin də böyük rolu vardır. Belə ki, 27 min tonluq uzunmüddətli və 43,4 min tonluq qısamüddətli anbarların tikilib istifadəyə verilməsi diyarımızda taxıl ehtiyatının yaradılması işinə öz töhfəsini verib. İstehsal olunan buğdanın hər kiloqramının 30 qəpikdən mərkəzləşmiş qaydada satın alınması da taxıl istehsalına olan marağı xeyli artırıb.

Onu da qeyd edək ki, 2018-ci ilin payızında cari ilin məhsulu üçün muxtar respublikada 31 min 667 hektar sahədə taxıl əkini aparılıb. Bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 742 hektar çox deməkdir.

Muxtar respublikada taxılçılıqla yanaşı, ikinci çörək hesab olunan kartof məhsuluna olan tələbatın ödənilməsi diqqət mərkəzində saxlanılır. Müxtəlif dövlət proqramlarının uğurla həyata keçirilməsi, həmin sahədə çalışan mülkiyyətçilərə davamlı olaraq güzəşli kreditlərin verilməsi bu sahədə yüksək nailiyyətlərin əldə olunmasına yol açıb. Nəticədə, 2018-ci ildə sahələrdən 49 min 574 ton məhsul yığılıb. Bu isə əvvəlki illə müqayisədə 592 ton çoxdur.

İqtisadi səmərəliliyinə görə əkilən bitkilər içərisində tərəvəzçiliyin xüsusi yeri vardır. Məhz bu səbəbdən muxtar respublikada tərəvəz əkini sahələri hər il daha da genişləndirilir. Bunun nəticəsidir ki, torpaq mülkiyyətçiləri və sahibkarlar 2017-ci illə müqayisədə 919,4 ton çox olmaqla, 2018-ci ildə 6183 hektar tərəvəz əkinlərindən 85 min 642 ton məhsul toplayıblar.

Artıq muxtar respublikada yaz-tarla işlərinə başlanılıb. 2019-cu il martın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində muxtar respublikada yaz-tarla işlərinə hazırlıqla əlaqədar keçirilən səyyar müşavirədə qeyd olunduğu kimi, bu ilin yazında 27 min hektardan artıq sahədə əkin aparılacaq. Eyni zamanda 70 hektar sahədə yeni meyvə bağları, 6 hektar sahədə üzüm bağı, 106 hektar sahədə tinglə bərpa, 170 hektar sahədə isə toxumla bərpa olmaqla, ümumilikdə, 352 hektar sahədə yaşıllaşdırma tədbirlərinin aparılması nəzərdə tutulub. Hazırda bu istiqamətdə işlər sürətlə davam etdirilir.

Torpaq mülkiyyətçilərinin müasir kənd təsərrüfatı texnikaları ilə təchiz olunması istiqamətində də işlər uğurla aparılır. 2019-cu ilin ötən dövründə tələbata uyğun olaraq 292 texnika və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilib. Ötən həftə 55 sahibkara 75 adda texnika və texnoloji avadanlıqlar verilib.

2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması və bununla əlaqədar Tədbirlər Planının təsdiq edilməsi həmin sahənin inkişafına yeni stimul verib. Hazırda Naxçıvanda 525 böyük ailə təsərrüfatı fəaliyyət göstərir və yeni ixtisaslaşmış ailə təsərrüfatlarının formalaşması, gələcəkdə kiçik və orta sahibkarlıq subyektinə çevrilməsi istiqamətində tədbirlər həyata keçirilir.

*Diyarımızda aqrotexniki tədbirlərin optimal müddətdə keyfiyyətlə aparılması bu sahənin inkişafını daha da sürətləndirib. Məhsul istehsalçılarına göstərilən dövlət dəstəyinin ilbəil artırılması isə torpaq mülkiyyətçilərinin torpağa bağlılığını artırır. Onlar əkin sahələrini genişləndirir, yüksək məhsul istehsalında yeni-yeni uğurlar qazanır. Muxtar respublikada fəaliyyət göstərən torpaq mülkiyyətçiləri və sahibkarların 2018-ci ildə əldə etdikləri nailiyyətlər deməyə əsas verir ki, 2019-cu ildə qarşıya qoyulan bütün vəzifələr uğurla yerinə yetiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Melioratorlar yaz-tarla işlərinə hazırdır

Muxtar respublikada suvarma mövsümünün mütəşəkkil keçirilməsi diqqətdə saxlanılır. Bunun ifadəsidir ki, 2019-cu ilin əvvəlindən bu günə anbarlara 200 milyon kubmetr su yığılıb, 74 kilometr beton və torpaq kanal, 55 kilometr ara arxlar, 8 kilometr kollektor lildən təmizlənib, 2,4 kilometrlik yeni suvarma və içməli su xətləri çəkilib. Bu dövrdə 4 kəhriz bərpa olunub, 111 subartezian quyusu isə təmir edilib.

Kəngərli rayonunun Yurdçu kəndi ərazisində 56 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılıb,1300 metr paylayıcı boru xətti çəkilib. Həmçinin rayonda 6,7 hektar torpaq sahəsi əkin üçün yararlı vəziyyətə gətirilib.

Həyata keçirilən meliorativ tədbirlər nəticəsində muxtar respublika üzrə 202 hektar sahədə qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınıb. Torpaqları sel sularından qorumaq məqsədilə Naxçıvançay, Cəhriçay, Vənəndçay vadilərində, Qahab və Sirab selovlarında 4 kilometr istiqamətləndirici bənd tikilib. Yeni əkilmiş yaşıllıq sahələrinin suvarma suyu ilə təmin olunması üçün Şərur rayonunun Danyeri kəndində sol sahil magistral kanal üzərində və Kəngərli rayonunun Qıvraq qəsəbəsində təmirbərpası aparılan kəhrizin çıxışında yeni nasos aqreqatları quraşdırılıb.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Ordubad rayonunda su anbarlarında nasoslar quraşdırılıb və birləşdirici xətlər çəkilib. Şərur rayonunda sutəmizləyici qurğunun, Babək rayonunda içməli su və kanalizasiya şəbəkəsinin tikintisi davam etdirilib. Bundan başqa, Şərur rayonunun Zeyvə və Düdəngə kəndlərində içməli su şəbəkəsinin tikintisinə başlanılıb, 8795 metr içməli su xətti çəkilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

*İstehsal müəssisələri*

# Müəssisədə keyfiyyətli ət və ət məhsulları istehsal edilir

***Muxtar respublikamızda sahibkarlıq mühitinin formalaşması, iş adamları üçün əlverişli şəraitin yaradılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Bu tədbirlər nəticəsində əhalinin ərzaq təhlükəsizliyi təmin olunub.***

İllər öncə ət məhsullarına olan tələbatımızı ödəmək, dadlı-tamlı bir məhsul əldə etmək üçün muxtar respublikadan kənara çıxırdıqsa, indi buna ehtiyac yoxdur. Bu gün daxili bazarda yüksəkkeyfiyyətli yerli ət məhsulları ilə hər addımda qarşılaşmaq olar. Ət istehsalı ilə məşğul olan müəssisələrdən biri "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Dövlət qayğısından bəhrələnən bu müəssisə Babək rayonunun Qoşadizə kəndi ərazisində yerləşir. Burada müasir layihə əsasında yeni ət məhsulları kompleksi tikilərək 2013-cü ilin may ayında istifadəyə verilib.

Ötən günlərdə "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal sahələrindən biri olan "Gəmiqaya Bərəkət Ət Məhsulları Kompleksi"ndə olduq. İstehsal sahəsində 14 çeşid kolbasa və sosiska istehsal edilir. Keyfiyyətli məhsul istehsalı üçün Türkiyə, Avstriya və İtaliyadan idxal edilmiş avadanlıqlar alınıb. İstehsal sahəsi gündə bir ton ət məhsulu istehsaletmə gücünə malikdir. İstifadə olunan xammalın 80 faizi yerli məhsullardandır. Bütün iri və xırdabuynuzlu heyvanların kəsimində lazımi sanitar-gigiyenik tələblərə riayət olunur.

Müəssisənin yaradılmasında başlıca məqsəd daxili bazarın yüksəkkeyfiyyətli, rəqabətədavamlı ət və ət məhsulları ilə təchiz etməkdən ibarətdir. Onun tabeliyində ət kəsim və saxlama sexi, pərakəndə satış mağazası, kolbasa istehsalı sexində, ümumilikdə, 25 nəfər çalışır. Müəssisənin daim təzə ətlə təmin olunması üçün ayrı-ayrı rayonlarda fəaliyyət göstərən fermer və fərdi sahibkarlar ilə əlaqələr yaradılıb. Muxtar respublikanın müxtəlif bölgələrində yaşayan əhalidən bazar qiymətlərinə uyğun olaraq iribuynuzlu və xırdabuynuzlu heyvanlar alınmaqla xammal tədarük edilir. Məhsullar normalara uyğun qaydada soyuducu anbarlarda mənfi 18, hazır məhsul isə müsbət 8-10 dərəcə xüsusi kameralarda saxlanılır. İstehsal edilən bütün məhsullar ölkədaxili sertifikatlar ilə təmin olunub. "Gəmiqaya Bərəkət Ət Məhsulları Kompleksi"nin dana əti istehsalı üzrə illik gücü 1500 ton, çəkilmiş ət 70 ton, quzu əti 800 ton, sümüksüz ət 700 ton, ciyər 80 ton, əla növ kolbasa 180 ton, sardelka 100 ton, sosiska 180 ton, Naxçıvan kolbasası 160 min kiloqram, servelat 70 kiloqramdır. Müəssisə rəhbəri dönər üçün ət sifarişlərini də qəbul etdiklərini bildirir. Burada gün ərzində 100 baş iribuynuzlu, 250 baş xırdabuynuzlu heyvanın kəsimini həyata keçirmək mümkündür. Müxtəlif dondurucu temperatura malik 8 soyuducu kamera yaradılıb, məhsulların ticarət mərkəzlərinə çatdırılması məqsədilə 2 ədəd soyuducu yük yeri olan nəqliyyat vasitəsi alınıb. Həmin avtomobillər vasitəsilə istehsal edilən məhsulun ayrı-ayrı ticarət obyektlərinə keyfiyyətlə çatdırılması təmin olunur.



Müasir texnoloji avadanlıqlar quraşdırılmış müəssisədə istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib. Hazırda müəssisədə müxtəlif çeşidlərdə ət və ət məhsulları, hisə verilmiş və bişirilmiş kolbasa məmulatları, eləcə də sosiska istehsal olunur. Burada ət və ya hazır məhsul laborator analizdən keçirildikdən sonra satışa buraxılır.

"Bərəkət" əmtəə nişanı ilə satışa çıxarılan ət və ət məhsulları alıcılar tərəfindən rəğbətlə qarşılanır. Ayrı-ayrı ticarət şirkətlərindən alınan sifarişlər də dad-tamı ilə seçilən bu yerli məhsula tələbatın çox olduğunu göstərir. Kompleksdə müxtəlif çeşidlərdə ət və ət məhsullarının istehsal olunması istehlakçılara seçim imkanı yaradır. Həmin məhsullar əhalinin və dövlət tərəfindən təminatı həyata keçirilən qapalı müəssisələrin tələbatını tamamilə ödəyir. Gələcəkdə müəssisədə istehsal olunan məhsulların ölkəmizin digər regionlarında satışı və xarici bazarlara çıxarılması da planlaşdırılır.

Müəssisədə əməkdaşların peşəkarlıq səviyyəsinin artırılması üçün seminarlar da keçirilir. Avadanlıq və cihazların işlədilməsi prosesini fasiləsiz təmin etmək məqsədilə işçi heyəti metodik vəsaitlərlə təmin edilib.

Ət məhsulları kompleksində olarkən öyrəndik ki, heyvandarlıqla məşğul olan sahibkarlar istədikləri vaxt təsərrüfatında ətlik iribuynuzlu və xırdabuynuzlu heyvanları kompleksə nağd yolla sata bilirlər. Eyni zamanda sahibkar əgər, sadəcə, kəsim üçün müraciət edibsə, kəsilən heyvanın əti müəssisədəki xüsusi maşınlarla sifarişçilərin ünvanlarına çatdırılır.

Müəssisənin nəzdində fəaliyyət göstərən firma mağazasının xidmətlərindən istifadə edən alıcı Hüseyn Səfərov deyir ki, Bakıda yaşayıram. İllər öncə hər dəfə doğma diyara gələndə burada yaşayan qohum-tanışlar oradan ət məhsulları gətirməyimi istəyirdilər. Artıq buna ehtiyac qalmayıb. Bu gün Naxçıvanda istehsal və emal olunan ət məhsulları öz dad-tamı ilə seçilir. Diyarımızın coğrafi-təbii şəraiti, iqlimi burada bütün sanitar-gigiyenik qaydalara cavab verən məhsul istehsalında başlıca amillərdən biridir.

Ət məhsulları kompleksi də istehsal və xidmət baxımından yüksək şəraitə malik bir müəssisədir. Artıq hər dəfə doğma diyarıma qonaq gələndə bu müəssisədə istehsal olunan müxtəlif çeşiddə keyfiyyətli ət və ət məhsullarından Bakıda yaşayan dost-tanışa sovqat aparıram.

Bütün bunlardan belə qənaətə gəlmək olur ki, bəhs etdiyimiz istehsal müəssisəsinin məhsullarına təkcə yerli əhali tərəfindən deyil, buraya gələn qonaqlar tərəfindən də böyük maraq göstərilir.

**Ramiyyə ƏKBƏROVA**

*Naxçıvan xarici mediada*

## Ərəbistanın turizm firmaları Naxçıvanı təbliğ edir













*Səudiyyə Ərəbistanı Krallığının Turizm və İrs Komitəsinin nəzdində fəaliyyət göstərən turizm media orqanlarının “arabtourist.net” və “ac4mt.net” internet saytlarında Naxçıvan Muxtar Respublikası haqqında ərəb dilində məlumat yerləşdirilmiş, Naxçıvan şəhərinin və muxtar respublikanın təbiət mənzərələrini əks etdirən fotoşəkillər paylaşılmışdır.*

“Qafqazın incisi, İslam Mədəniyyətinin Paytaxtı” sərlövhəli yazıda Naxçıvanın tarixinə nəzər salınır, muxtar respublikada 1200-dən artıq dünya və yerli əhəmiyyətli tarixi abidənin olduğu qeyd edilir. Diqqətə çatdırılır ki, qədim tarixə malik olan Naxçıvan şəhəri güclü dövlətlərin, o cümlədən Atabəylər dövlətinin paytaxtı olmuş, burada elm, mədəniyyət və sənətkarlıq geniş inkişaf etmiş, islami dəyərlər yaşadılmışdır.

Yazıda muxtar respublikanın müasir inkişafından da bəhs olunur və vurğulanır ki, hazırda qədim Naxçıvan müasir inkişaf mərhələsindədir. Eyni zamanda Azərbaycanın Naxçıvan Muxtar Respublikasında turizm üçün geniş imkanlar vardır. Təbiəti, tarixi abidələri və müalicə mərkəzləri turistlər üçün ideal yerlərdir.

Ərəbistanın Azərbaycana turlar təşkil edən turizm firmalarının “Twitter” sosial şəbəkə hesablarında isə muxtar respublikanın inkişafını və turizm potensialını təbliğ edən 4 videomaterial və 12 fotoşəkil paylaşılmışdır.

Qeyd edək ki, istər Səudiyyə Ərəbistanı Krallığının Turizm və İrs Komitəsinin nəzdində fəaliyyət göstərən turizm media orqanlarının internet saytlarının, istərsə də turizm firmalarının sosial şəbəkə hesablarının milyonlarla izləyicisi vardır.

## Rusiyanın “Mədəniyyət” televiziyası Naxçıvanda çəkilişlər aparıb



*Rusiyanın “Mədəniyyət” televiziyasının Azərbaycan elmi haqqında hazırladığı filmin çəkilişlərinin bir hissəsi muxtar respublikada aparılıb. Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşları verilişin çəkiliş prosesini izləyiblər.*

Muxtar respublikada çəkilişlərinə aprelin 6-dan başlanılan verilişin redaktoru Marina Orlova, rejissoru Aleksey Jukov, kinooperatoru isə Maksim Xəlilovdur. İlk gün Heydər Əliyev Muzeyi, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma altında Muzey Kompleksi, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi və Gülüstan türbəsində çəkilişlər aparılıb. Aprelin 7-də isə çəkiliş heyəti Qarabağlar Türbə Kompleksində və Duzdağ Fizioterapiya Mərkəzində olublar. Tarixi abidələrdə çəkiliş aparan televiziyanın əməkdaşlarına muxtar respublikanın qədim tarixi və adət-ənənələri haqqında ətraflı məlumat verilib.

Çəkilişlər zamanı muxtar respublikada türk-islam mədəniyyəti abidələrinin elmi tarixi əsaslarla bərpa və təmir edilməsi önə çəkilib.

Qeyd edək ki, Rusiyanın “Mədəniyyət” televiziyasının Naxçıvanda apardığı çəkilişlər dünən də davam etdirilib. Qonaqlar AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunda ayrı-ayrı şöbə və laboratoriyalarda olub, çəkilişlər aparıblar.

Rusiyanın “Mədəniyyət” televiziyasının çəkiliş qrupu, həmçinin Naxçıvan teleradiosu ilə də tanış olub. Çəkiliş qrupunun rəhbəri Marina Orlova Naxçıvan televiziyasına müsahibə verib.



O deyib:

– Naxçıvanda olduğumuz müddətdə bir sıra çəkilişlər apardıq, tarixi abidələriniz çox xoşuma gəldi. Buradakı hər bir tarixi abidənin fərqli memarlıq üslubunun olması diqqətimi çəkdi. Qarabağlar Türbə Kompleksində də olduq. Burada məlumat verildi ki, bu tarixi abidə qədim quruluşu qorunmaqla elmi əsaslarla yenidən bərpa edilib. Təəssüflənirəm ki, biz bu gün qayıdırıq. Bu qədim, zəngin diyardan xoş təəssüratlarla ayrılırıq. Çalışacağam, yenidən bu gözəl diyara gələm.

Onu da deyim ki, Naxçıvan məni çox təəccübləndirdi. Ona görə ki, buranın insanları gülərüz və qonaqpərvərdirlər. Şəhər çox təmizdir. Bu təmizliyi mən çoxdandır heç yerdə görmürdüm. Sanki bura müasir bir Almaniya şəhəridir və burada almanlar yaşayır. Lap ucqar kəndlərə gedəndə də gördüm ki, yollar çox abadlaşıb, hər bir kəndə qaz, işıq çəkilib. Çox gözəl haldır ki, kəndlərdə sürətli internet mövcuddur. Bu gün Naxçıvan televiziyasına gəldim və buradakı şəraiti görüb bir daha təəccübləndim. Televiziya müasir texnoloji avadanlıqlarla təchiz olunub. Mənə məlumat verildi ki, Naxçıvanda 2011-ci ildən rəqəmsal yayıma keçilib. Rusiyada rəqəmsal yayıma hələ indi keçirlər. Televiziyanın studiyaları, montaj otaqları, arxivi, radiosu, kitabxanası ən müasir standartlara cavab verir. Bunların hər biri gələcəyə hesablanmış işlərdir. Mən, həmçinin “Nuhçıxan” İnformasiya Agentliyinin fəaliyyəti ilə də tanış oldum. Burada kollektiv üçün müasir iş şəraiti yaradılıb, kompüter və digər avadanlıqlar istifadəyə verilib. Təbii ki, bütün bunların hər biri məndə xoş təəssürat yaratdı. Mən özüm peşəkar televiziya işçisiyəm və burada yaradılan şəraitə peşəkarcasına qiymət verirəm.



***“Nuhçıxan” İnformasiya Agentliyi***

## XI sinif şagirdləri üçün buraxılış imtahanı və rezidenturaya qəbul imtahanının I mərhələsi keçirilib

*Aprelin 7-də Bakı, Şirvan şəhərlərində və Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən orta ümumtəhsil məktəblərinin XI sinif şagirdləri üçün buraxılış imtahanı və rezidenturaya qəbul imtahanının birinci mərhələsi keçirilib.*

Buraxılış imtahanında şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədilə tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə, ümumilikdə, 85 tapşırıq təqdim olunub. İmtahan respublikanın bütün bölgələrində eyni vaxtda – saat 11[00]-da başlanıb və 3 saat davam edib.

XI sinif şagirdlərinin buraxılış imtahanlarının keçirilməsi üçün qeyd olunan ünvanlarda 63 imtahan mərkəzi təşkil edilib. İmtahanlarda 27 min 659 nəfər XI sinif şagirdi iştirak edib. İmtahanların idarə olunmasına 63 ümumi imtahan rəhbəri, 189 imtahan rəhbəri, 2192 nəzarətçi-müəllim, 207 buraxılışı təşkil edən əməkdaş, 63 bina nümayəndəsi ayrılıb.

Naxçıvan Muxtar Respublikasında imtahanların şəffaf və obyektiv keçirilməsi üçün 10 imtahan mərkəzi yaradılıb. Bu mərkəzlərdə, ümumilikdə, 2915 şagird imtahan verib. Muxtar respublikada keçirilən imtahanların idarə olunmasına 24 imtahan rəhbəri, 278 nəzarətçi-müəllim cəlb edilib.

İmtahanda istifadə olunan açıq-tipli tapşırıqların yoxlanılması uzun müddət tələb etdiyindən nəticələrin yay qəbul imtahanları keçiriləndək elan olunması nəzərdə tutulur.

Qeyd edək ki, I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqə zamanı abituriyentlərin buraxılış imtahanında əldə etdikləri nəticələr də nəzərə alınacaq və qəbul imtahanından toplanılan balın üzərinə əlavə olunacaq. V ixtisas qrupu (ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları) və orta ixtisas təhsili müəssisələri üzrə müsabiqə buraxılış imtahanının nəticələrinə əsasən aparılacaq.



Rezidenturaya qəbul imtahanı isə Bakı şəhərində 3, Naxçıvan şəhərində isə 1 binada keçirilib. İmtahan 2 saat 30 dəqiqə davam edib.

Məlumat üçün bildirək ki, imtahanda iştirak etmək üçün 930 namizəd qeydiyyatdan keçib. Onlardan 798-i Azərbaycan, 132-si isə rus bölməsi üzrə imtahan verib. İmtahanın idarə olunmasına 9 imtahan rəhbəri, 86 nəzarətçi-müəllim cəlb olunub.

Naxçıvan Muxtar Respublikasında imtahan Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin binasında keçirilib. 30 nəfərin iştirak etdiyi imtahanın keçirilməsi üçün 1 imtahan rəhbəri cəlb edilib.

Nəticələrin yaxın 2-3 gün ərzində *www.dim.gov.az* saytında elan edilməsi nəzərdə tutulur.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## *“Nəsimi həftəsi”*nin açılışı olub

***Dünən “Naxçıvan” Universitetində görkəmli filosof-şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə “Nəsimi həftəsi”nə start verilib.***

Tədbirdə çıxış edən ali təhsil ocağının prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin ölkəmizdə “Nəsimi ili” elan edilməsinin şairin yaradıcılığının təbliği baxımından böyük əhəmiyyət daşıdığını bildirib. Sərəncamdan irəli gələn vəzifələrin muxtar respublikada da yerinə yetirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq Naxçıvanda da Nəsiminin həyat və yaradıcılığı ilə bağlı silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

Vurğulayıb ki, xalqımızın görkəmli şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə keçirilən “Nəsimi həftəsi” də ölməz sənətkarın həyat və yaradıcılığının, ideallarının tələbələrimizə tanıdılmasına və təbliğ edilməsinə geniş imkan açır.

Universitetin Tələbə-Gənclər Təşkilatının sədri Zakir Məmmədov çıxış edərək bildirib ki, “Nəsimi həftəsi” 8-12 aprel tarixlərini əhatə edəcək. Hazırlanmış qrafikə əsasən dünən “Nəsimi” tarixi filminin nümayişi olub, “Nə? Harada? Nə zaman?” intellektual oyununun, Xalq şairi Qabilin “Nəsimi” poemasının müzakirəsinin, “İmadəddin Nəsimi – 650” adlı elmi konfransın keçirilməsi nəzərdə tutulur. “Nəsimi həftəsi” tələbələrin Culfa rayonundakı Xanəgah Abidə Kompleksinə ekskursiyası ilə yekunlaşacaq.

Sonra ssenari müəllifi Xalq yazıçısı İsa Hüseynov, rejissoru Həsən Seyidbəyli olan “Nəsimi” filmi nümayiş etdirilib. Tarixi-bioqrafik filmin Naxçıvan çəkilişləri maraqlı məqamları ilə yadda qalıb. 1974-cü ildə Bakıda VII Ümumittifaq kinofestivalı çərçivəsində “Ən yaxşı tarixi film” mükafatına layiq görülən ekran əsərini tələbələr maraqla izləyiblər.

**Seyfur HACIMURADOV**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Xalqımızın birlik, əzəmət və mərdlik rəmzi

## YALLILAR



***Bu gün muxtar respublikamızda xalq yaradıcılığının, folklorumuzun, milli dəyərlərimizin yaşadılmasına və gələcək nəsillərə çatdırılmasına böyük qayğı göstərilir, bu sahədə mühüm tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı xalq yaradıcılığının müasir dövrümüzdə inkişafına, təbliğinə və tədqiqinə yeni üfüqlər açmışdır. Qədim diyarımızda bu istiqamətdə görülən çoxsaylı tədbirlərdən biri də folklor festivallarının, müsabiqələrin, elmi konfransların keçirilməsi, xalq yaradıcılığı ilə bağlı kursların təşkil edilməsidir.***

2012-ci ilin "Milli dəyərlər ili" elan olunması qədim diyarımızda xalq yaradıcılığının inkişaf etdirilməsi üçün əlavə stimul vermişdir. Ötən il "Yallı" (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi muxtar respublikamızda aparılan mədəniyyət siyasətinin bəhrəsi, tükənməz milli sərvətimiz olan xalq yaradıcılığının təbliği ilə bağlı tarixə yazılan mühüm uğurdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun xalq yaradıcılığına diqqət və qayğısı bu uğurun əsas təminatçısıdır. Belə ki, Ali Məclis Sədrinin tapşırığına əsasən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi yallı sənəti ilə bağlı tədqiqatlar aparıb, bu irsin UNESCO səviyyəsində qorunması sahəsində tədbirlər həyata keçirib, "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar hazırlanıb aidiyyəti üzrə təqdim olunub. Nəticədə isə milli dəyərlərimizin tərkib hissəsi olan yallılarımızın UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi kimi əhəmiyyətli tarixi uğur qazanılıb. UNESCO-nun həmin qərarı ilə mənfur qonşularımızın bu dəyərlərimizi öz adlarına çıxmaq cəhdlərinin qarşısı alındı. Dünya bir daha təsdiq etdi ki, yallı məhz bizim xalqımıza məxsusdur.

Ali Məclis Sədrinin 2018-ci il 24 dekabr tarixli "Şərur yallıları haqqında" Sərəncamı da xalq yaradıcılığına böyük qayğının daha bir ifadəsidir. Sərəncama əsasən təsdiq olunmuş Tədbirlər Planında yallı ilə bağlı tədqiqatların və nota köçürülmə işinin davam etdirilməsi, onların reyestrinin aparılması və digər mühüm məsələlər öz əksini tapmışdır.

### Minillik həyat tərzimizin və bədii təfəkkürümüzün güzgüsü

Xalqımızın minillik həyat tərzini və bədii təfəkkürünü bu günə daşıyan yallılar birlik rəmzi, milli xüsusiyyətlərimizin və el hikmətinin ifadəçisi, xalq yaradıcılığı xəzinəsidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: ***"Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir. Yallılar Azərbaycan xalqının qəhrəmanlıq, mərdlik rəmzidir. Bu tarixi heç vaxt unutmaq olmaz. Naxçıvan torpağında bu tarix yaşayır, inkişaf edir və örnək olaraq gələcək nəsillərə qalır".***

Yaşı min illərə söykənən yallının tarixi və mənşəyi dəqiq bilinmir. Tədqiqatçılardan bəziləri qeyd edirlər ki, yallılar ən qədim dövrlə bağlı olub vaxtilə ovçuluq və atəşi qorumaq məqsədilə icra olunan mərasim oyunu növlərindəndir. Bununla bağlı Qobustan və Gəmiqaya qayaüstü rəsmlərində, "Kitabi-Dədə Qorqud" dastanında, Nizaminin "Xosrov və Şirin" poemasında müəyyən təsvir və məlumatlara rast gəlinir. "Yallı" sözünün etimoloji mənasının "işıq", "od", "alov" olduğunu bildirənlər də vardır. İlk çağlar əl-qol, himcim və bədən hərəkətlərindən ibarət olub bir-birinin əlindən tutaraq dəstə



ilə ifa olunan, özündə rəqs, oxuma, musiqi və tamaşa ünsürlərini birləşdirən bir xalq oyunu təsiri bağışlayıb, sonralar öz xüsusiyyəti, yaranma şəraiti, icra tərzinə görə müxtəlif qollara ayrılıb. Bəzi yallılar yalnız kişilərə aid olduğu halda, digərlərində qadınlar da iştirak ediblər. İfa zamanı əl çalmaq, nida və ya söz demək oyunun özünəməxsus cəhətlərindəndir. Bəzi bölgələrdə bu oyuna "əl-ələ", "lələli", "yallı", "yaylı" deyirlər. Xalq arasında "yallı getmək", "yallı durmaq" və ya "yallı tutmaq" ifadələri bu oyunu ifa etmək mənasında işlədilir.

Yallılar sintetik rəqs kimi xoreoqrafiya, instrumental və vokal musiqisini özündə birləşdirir, xoreoqrafiya məzmununa görə iki növə – süjetli və rəqs yallılarına bölünür. Bu milli rəqslərimiz həm də teatrlaşdırılmış xalq oyunları olduğu üçün bəzən "Oyun yallı" da adlandırılır. Rəqs yallılarında qəhrəmanlıq motivləri, xalqımızın əhval-ruhiyyəsi, gəncliyin çevikliyi də özünü göstərməkdədir. Təsadüfi deyil ki, "Koroğlu", "Nərgiz" kimi milli operalarımızda, "Gülşən", "Qız qalası", "Babək" baletlərimizdə və digər müxtəlif musiqi əsərlərində yallının janr xüsusiyyətlərindən bəhrələniblər.

Yallı rəqs mədəniyyətimizin tarixini öyrənmək baxımından bu gün də maraq doğurmaqdadır. Bununla bağlı folklorşünaslar, tədqiqatçılar, musiqiçilər maraqlı və elmi cəhətdən əsaslandırılmış fikirlər söyləyib, məqalələr, kitablar yazılıb, sənədli filmlər çəkilib.

"Yallının beşiyi Şərur bölgəsidir", – deyənlər heç də yanılmayıblar. Şərur yallılarının tarixi, ruhi-mənəvi qaynaqları, bədii-estetik gözəlliyi, min illərin düşüncə tərzini yaşatması, rəqs hərəkətlərinin rəmzləri, incə elementlərin izahı və öyrənilməsi, təhlil ediləsi cəhətləri haqqında deyiləsi fikirlərə bu gün də böyük ehtiyac vardır. UNESCO-nun Təcili Qorunma Siyahısına salınmış "Tənzərə" və "Köçəri" yallıları da milli mənşəyi və özünəməxsus səciyyəvi



xüsusiyyətləri ilə seçilirlər.

### Yallıların xalqımıza məxsusluğunu dünyaya təsdiqlədən faktlar

"Tənzərə" yallısı gözəllik ifadə etməklə, adətən, qadınlar tərəfindən oynanılır. Bu ikihissəli yallıda ifaçıların geyimi zərli və üzəri daş-qaş və başqa bəzəkli düzümlərlə bəzədilmiş olur. İfaçılar musiqinin ritminə uyğun olaraq hərəkət etdikcə paltarın üstündəki bəzək əşyaları silkələnir və zurnada çalınan musiqi ilə ahəngdarlıq yaradır. "Tənzərə" adının da buradan götürülməsi güman edilir. Yəni yarı zər, yarı bəzək-düzək. Bu yallı Şərur toylarında daha çox ifa edilir.

"Köçəri" yallısının da adı birbaşa bildirir ki, bu yallı xalqımıza məxsusdur. Sözün etimologiyasından danışarkən, ilk olaraq onu qeyd etməyi lazım bilirik ki, Mahmud Kaşğarinin məşhur "Divani-lüğət-it-türk" kitabında "köçəri" sözü aşağıdakı mənalarda verilmişdir: koç-qoç, yəni erkək qoyun; köçmək, yəni bir yerdən, yaxud bir evdən başqa yerə getmək. Sözün mənşəyini Azərbaycan ərazisində İslamdan əvvəlki dövrlərdə qəbiristanlıqlarda başdaşı üzərində qoyulmuş daş qoç və daş at heykəlləri ilə əlaqələndirənlər də vardır. Belə ki, daş qoçlu qəbirlər Oğuz qəbirləri olduğuna görə "Köçəri" yallısının adının mənasının da "koç-qoç" kəlməsi ilə bağlı olması ilə əlaqədar ehtimallar da onun türkmənşəli olmasına heç bir şübhə yaratmır. Lakin yallının xarakterik ifa tərzi deməyə əsas verir ki, "Köçəri" yallısının adı türkmənşəli "köç" sözündən götürülmüşdür.

Rəqsin düzülüşündən və hərəkətlərindən aydın olur ki, insanlar məskənlərini dəyişəndə, yəni arandan yaylağa, yaylaqdan isə arana köçən vaxt müəyyən hazırlıq işləri görürlər. Məskunlaşacaqları yerdə yurd salmaq üçün əşyaların toplanması, onların heyvanlara yüklənməsi "Köçəri" yallısında təcəssüm etdirilir. Bu üçhissəli yallıda insan musiqi və hərəkət ritmindən duyur ki, birinci hissədə kədər, qəm-qüssə var. İnsanlar könülsüz halda doğma məskənlərini tərk etdiklərindən, aram-aram yerişlə keçilməz, dolayı, sanki dağ keçidlərini keçdiklərini əks etdirirlər. İkinci hissədə çətin və dolayı, daşlı-kəsəkli yollarda sanki dağ keçidlərini qalxırlar. Üçüncü hissədə isə artıq insanlar istədikləri mənzilə çatdıqlarından, yeni quracaqları məskənləri təsvir edir, həm də çox sürətli, şən əhval-ruhiyyəli hərəkətlərlə yallını yekunlaşdırırlar.

Bu kiçik qeydləri qələmə almaqda məqsədimiz yallılarımızın xalqımızın etnoqrafik həyatını, dünyagörüşünü, məişətini əks etdirməsini xatırlatmaqdır. Yallılarımızın hamısında bu xüsusiyyətləri görmək olar. Bu gün muğamlarımızın adı kimi yallılarımızın adının da etimoloji cəhətdən dəqiq elmi izahına ciddi zərurət yaranıb. Bu adların izahı, yallıların ifa tərzi, tarixi, yayılma arealı, kanonik hərəkət sistemi haqqında peşəkar tədqiqatçı və musiqişünas axtarışları yeni kitabların yaranmasına səbəb ola bilər. "Naxçıvan-Şərur el yallıları" kitabı bu cəhətdən maraq doğurur. Onu da qeyd etmək yerinə düşər ki, bu günədək 90-dan çox yallımız ilk dəfə toplanaraq nota köçürülüb, kitab şəklində nəşr etdirilib. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi yanvar ayı ərzində Şərur yallılarının reyestrə alınması işini davam etdirib, Şərur yallı kollektivlərinin repertuarında olan bir neçə yallının çəkilişi aparılıb. "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti üçün hər cür şərait yaradılıb, ansamblın ifasından ibarət kompakt disk hazırlanıb. Bütün bunlar, xüsusilə də müasirimiz olan qocaman yallı ifaçılarının təcrübələrinin öyrənilməsi, heç şübhəsiz ki, yallılarımızın dünyəvi təbliğində mühüm rol oynayır.

### Yallılarımıza dünya şöhrəti qazandıran ansambl

Yallılarımızın Vətənimizdən kənarda tanıdılmasından və təbliğindən söz düşmüşkən "Şərur" Xalq Yallı Ansamblının xidmətlərini xüsusi qeyd etmək lazımdır. Ansambl mühüm tarixə və zəngin ənənələrə malikdir. Bu gün də 1939-cu ildə Moskva dekadasında uğurla çıxış edən, lakin dekadanın son günü tramvay qəzasına düşən və vəfat edən yallıbaşı Həsənbəy haqqında maraqlı rəvayətlər, söhbətlər Şərur torpağında gəzməkdədir. Deyilənə görə, o vaxt Həsənbəyi elə Moskvadakı qardaşlıq qəbiristanlığında ehtiramla dəfn etmişlər. Onunla Moskvada olanlar deyirlər ki, bu el ağsaqqalı səhnəyə çıxanda konsert salonunu alqış səsləri bürüyərdi. Ansamblın Macarıstan, Almaniya, Türkiyə, Polşa, Misir və Rusiyada keçirilən folklor festivallarında qazandığı diplom və mükafatlar kollektivin uğurlarının göstəricisidir. Ötən ilin mart ayında Türkiyənin Kastamonu şəhərinin 2018-ci ildə Türk dünyasının mədəniyyət paytaxtı olması ilə əlaqədar keçirilən rəsmi açılış mərasimi və Beynəlxalq Türk Mədəniyyət Təşkilatının (TÜRKSOY) təşəbbüsü ilə təşkil edilən Novruz şənliklərində "Şərur" Xalq Yallı Ansamblının iştirakı isə əsl mədəniyyət hadisəsi kimi yadda qaldı.

Hazırda qədim diyarımızda "Şərur" Xalq Yallı Ansamblı ilə yanaşı, muxtar respublikanın rayon mədəniyyət şöbələrinin nəzdində 20-dən çox yallı qrupu fəaliyyət göstərir. Sevindiricidir ki, Şərur rayonunda yallı ifaçılarının üç nəsli bu qədim rəqs və oyunu yaşadır. Bu da deməyə əsas verir ki, Şərur yallısı dünən və bu gün olduğu kimi, gələcəkdə də yaşayacaqdır. Çünki Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin də dediyi kimi: ***"Naxçıvanın üç incisi bizim üçün xüsusilə əzizdir: Əshabi-Kəhf, Gəmiqaya və Şərur yallıları. Biz bu inciləri qoruyub saxlamalıyıq".***

### Poetik ilham mənbəyimiz – yallılar

Şərur yallıları haqqında indiyədək onlarla şeir yazılmışdır. Yallının xalqımızın mərdliyini, qəhrəmanlığını, əyilməzliyini göstərməsi bu şeirlərdə vəsf olunur. Yallı haqqında ilk şeirlərdən biri tanınmış şairimiz, mərhum Nüsrət Kəsəmənliyə məxsusdur. Yaxşı yadımdadır ki, şair ötən əsrin 70-ci illərinin sonunda Naxçıvanda hərbi xidmət edirdi. Yallıya valeh olan şair "Şərur yallısı" şeirini də o zaman burada yazmışdır. Şeir ilk dəfə "Şərq qapısı" qəzetində çap olunmuş və sonralar şairin "Ürəyimə açılan qapılar" kitabında işıq üzü görmüşdü. O zaman çox gənc olan Nüsrət Kəsəmənli bu şeirdə yallımızın xalqın gücünü, qüdrətini göstərməsini gözəl duymaqla yanaşı, onun mənəvi və bədii-estetik gözəlliyini də ilhamla ifadə etmişdir. Bu yazını həm şeirlə bitirmək istərdim:

*Dəydi bir-birinə çiyinlər yenə,*
*Bir az da böyüdü kürəklər indi.*
*Bəyaz yelkənlərtək qabardı sinə,*
*Gəlsin rəqs eyləyək küləklər indi.*

*Qollar qanaq açdı, böyüdü dövrə,*
*Qartallar qoşuldu yallıya sanki.*
*Ehey!.. Ayağını möhkəm bas yerə,*
*Yerdən üzülübsən, buluddasan ki!*

*Bir çınqı od aldı, süzüldü gözlər,*
*Qollar bir-birinə düyünmü düşdü?*
*Qoşulun yallıya, durmayın, qızlar,*
*Hamıya yer çatar, meydan genişdir.*

*Baxın o cavanın qamçı belinə,*
*Yüngül qədəmlərin gör necə səkir...*
*Bir igid yaylığı alıb əlinə,*
*Görəsən dəstəni hayana çəkir?!*

*Qızların hörüyü qulac-qulacdı,*
*Bu qara kəməndə durmayın yaxın!*
*Kişilər hamısı Koroğlulaşdı,*
*Gəlinlər Nigara bənzədi, baxın!*

*Tonqal dilim-dilim dikəldi göyə,*
*Ona ürəklərdən od düşüb, nədir?*
*Qırmızı üfüqlər söykəndi göyə,*
*Üfüqlər tonqala ilişib, nədir?*

*Coşğunluqmu gəldi Arazdan, Kürdən,*
*Polad zəncirlər də dözmədi buna.*
*Açıldı qolların düyünü birdən*
*"Yallı" səpələndi Odlar yurduna!*

**Əli Rzayev**
***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

## İtmişdir

Naxçıvan şəhəri, 59-cu məhəllə, 2 ünvanında yaşayan Nağıyev Hüseyn Xanəli oğlunun adına olan 9970 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Həsənova Aysel Elgün qızının adına Kəngərli rayonunun Çalxanqala Kənd Uşaq Musiqi Məktəbi tərəfindən verilmiş Q-06143 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1495. Sifariş № 251